Bəsti Bərdəli

## Yazıram

Kimsənin önündə nə sın, nə əyil
Ürəkdən çıxanın qayıdan deyil
Şeiri əmidən, dayıdan deyil
Şeiri, Allah'dan umub yazıram.

Saxta ürəklərə yaramıram mən
Saçımı nəğməsiz daramıram mən
Şeiri dörtgözlə aramıram mən
Şeiri, gözümü yumub yazıram.

Savaş da gəzmirəm, qan da gəzmirəm
Ruham hər əcaib canda gəzmirəm
Şeiri şöhrətdə, şanda gəzmirəm
Şeiri düyğuya cumub yazıram

Məni el yaşadır, eldədi canım
Gündədi, aydadı, ildədi canım
Şeirə bükülmüş piltədi canım
Şeiri, əriyib, damıb yazıram.